# Görkəmli alim-pedaqoq, bəstəkar, ictimai xadim, Qafqazın Kabalevskisi...

**Azərbaycanın görkəmli bəstəkarı, pedaqogika elmləri doktoru, professor, Əməkdar müəllim, ictimai-siyasi xadim Oqtay Məmmədağa oğlu Rəcəbov 1941-ci il, aprel ayının 5-də Bakı şəhərində ziyalı ailəsində anadan olmuşdur. Oqtay Rəcəbovun tədqiqatçılıq qabiliyyəti haqqında ilk sözü hələ ötən əsrin 80-cı illərində ozamankı Azərbaycan Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitutunun Elmi Şura sədri, professor Zahid Qaralov demişdir ki, bəstəkar Oqtay Rəcəbov, eyni zamanda, müəllimdir. ADPU-da fizika və istehsalatın əsasları fakültəsini bitirmişdir. Həm musiqiçi, həm də müəllim olan kadrın gələcəkdə yaxşı tədqiqatçı kimi yetişməsinə heç bir şübhə ola bilməz.**

Zahid Qaralovun gümanı özünü doğrultdu. Bəstəkar Oqtay Rəcəbov qısa müddətdə özünü bacarıqlı pedaqoq-tədqiqatçı kimi göstərdi. Çoxsaylı elmi məqalənin, kitab, kitabça, metodik tövsiyələrin müəllifi oldu. Respublikamızda və keçmiş ittifaqda ilk dəfə yeni sistemdə musiqi proqramı hazırladı. Onun rəhbərlik etdiyi yeddiillik pedaqoji eksperiment məktəb təcrübəsində bu proqram özünü doğrultdu. Beləliklə, pedaqoji-metodik cəhətdən mühüm əhəmiyyətə malik olan "Musiqi proqramı" həyata vəsiqə aldı və mükafata layiq görüldü.

Illər ötdü, tədqiqatçı O.Rəcəbov pedaqoji elmlər doktoru, professor Yəhya Kərimovun rəhbərliyi ilə "Uşaq mahnıları kiçikyaşlı məktəblilərin musiqi-estetik tərbiyəsi sistemində" adlı namizədlik dissertasiyasını indiki dillə desək, pedaqogika üzrə fəlsəfə doktorluğu əsərini 1985-ci ildə keçmiş SSRİ Pedaqoji Elmlər Akademiyasının Bədii Tərbiyə İnstitutunda müvəffəqiyyətlə müdafiə edərək alimlik dərəcəsi aldı. Müdafiə Şurasında dissertantın opponenti akademik O.H.Apraksina əsərə yüksək qiymət verərək qeyd etdi ki, dissertasiyada 300-dən artıq uşaq mahnısının təhlil edilməsi, onların ölçüsü, bölgüsü, vəzni, dinamik xüsusiyyətləri və şagirdlərin musiqi estetik tərbiyəsindəki əhəmiyyətinin üzə çıxarılması O.Rəcəbovun gələcəkdə istedadlı bir alim kimi böyük müvəffəqiyyət qazanmasına əsas verir.

Beləliklə, bəstəkar O.Rəcəbov respublikamızda pedaqoji elmlər üzrə çalışan alimlərin sırasına müvəffəqiyyətlə daxil oldu. O, O.İmanova ilə birlikdə "V-VII siniflərdə musiqi ədəbiyyatına dair" kitabçasını hazırlamış, "Kəndimizin qəhrəmanı", "Qız, oğlan və şir", "Neft şahzadəsi", "Şah və xidmətçi" filmlərinə musiqi, üç simfoniya, iki simli alətlər üçün kvartet, bir simfonik posma, fortopiano üçün altı prelüd, iki sonata, violonçel və simfonik orkestr, fortopiano və simfonik orkestr üçün konsertlər, tar üçün müxtəlif xarakterli əsərlər, Rəsul Həmzətovun sözlərinə "Anaları qoruyun", "Sizin üçün qadınlar" vokal silsilələrini, "Göyçək Fatma" uşaq operasını yazmış və üç yüzdən artıq mahnı bəstələmişdir. Bütün bunlar yetişən nəslin ən mühüm estetik tərbiyə mənbəyidir.

Oqtay müəllimin rəhbərliyi ilə 1978-ci ildən respublikamızın ümumtəhsil məktəblərində başlayan eksperiment, nəhayət, 1985-ci ildə müvəffəqiyyətlə başa çatmışdır. Bu müvəffəqiyyətlərin siyahısına yeni sistemdə, 14 çap vərəqi həcmində hazırlanmış "Musiqi proqramı" (1-7 siniflər üçün) məntəxəbatı, musiqi müəllimləri tərəfindən rəğbətlə qarşılanmışdır. Bütün bu müvəffəqiyyətlər müəllimlərlə aparılan yaradıcı axtarışların, təşəbbüskarlıqların nəticəsində qazanılmışdır.

**Novator müəllim O.Rəcəbov səmərəli fəaliyyətinə görə dövlətimiz tərəfindən layiqincə qiymətləndirilmişdir. O, "Azərbaycanın Əməktar müəllimi" kimi fəxri adla təltif edilmişdir. Qabaqcıl Maarif Xadimi, SSRİ-nin Maarif Əlaçısı, Respublika Lenin Komsomolu Mükafatı laureatı olmuşdur. O.Rəcəbov Əməkdar müəllim kimi həmişə təlim-tərbiyə sahəsində axtarışlarını davam etdirir. Oqtay müəllim bu axtarışlarını təkcə tədris prosesi ilə məhdudlaşdırmır. O, sinifdənxaric işlər, məktəbdənkənar tərbiyə müəssisələrində uşaqların musiqi-estetik tərbiyəsi ilə bağlı vacib problemlər üzərində daim düşünür. Təsadüfi deyildir ki, Azərbaycan Bəstəkarlar İttifaqında Uşaq Musiqi bölməsinə uzun illərdir ki, rəhbərlik edir. Bu illər ərzində o, uşaqlar üçün müxtəli xarakterli musiqi əsərləri, məktəblilərin mahnı və rəqs bayramları üçün mahnılar, repertuar məcmuəsi hazırlamış, neçə-neçə uşaq kollektivlərinin üzə çıxmasına zəhmət sərf etmişdir. Azərbaycan müəllimlərinin VII qurultayı iştirakçıları üçün verilmiş konsertdə böyük müvəffəqiyyətlə çıxış edən Bakı, Naxçıvan, Sumqayıt, Gəncə, Ağdam, Cəlilabad, Qazax, Gədəbəy, Tovuz, Şamxor, Quba, Cəbrayıl, Yevlax, Astara, Lerik, Şəki, İsmayıllı, Füzuli rayonlarının uşaq kollektivləri O. Rəcəbovun yaradıcılıq fəaliyyəti nəticəsində üzə çıxmış və formalaşmışdır.**

Məktəblilərin yaxın dostu O. Rəcəbov 1978-ci ildən başlayaraq Azərbaycan Televiziyasının "Məktəblilərin musiqi kulubu"nda uşaqlar üçün məzmunlu, rəngarəng verilişlər hazırlamışdır. Bu verilişlərdə O.Rəcəbov uşaqların arzu və təkliflərinə uyğun müxtəlif çalarlı musiqi əsərlərini təhlil etmiş, uşaqları maraqlandıran, onlara qaranlıq qalan suallara cavab vermək üçün verilişə görkəmli alimləri, bəstəkarları, musiqiçiləri və digər mütəxəssisləri dəvət etmişdir. Uşaqlar kulubda Qara Qarayev, Fikrət Əmirov, Niyazi, D.B.Kabalevski, Arif Məlikov, Tofiq Quliyev, Süleyman Ələsgərov, Fərəc Qarayev, Elmira Abbasova kimi görkəmli bəstəkarlarla, beynəlxalq müsabiqələr laureatları Fərhad Bədəlbəyli, Ədilə Əliyeva, Arzu Ələsgərov və digər ifaçılarla yanaşı, pedaqoji elmlər doktorları Zahid Qaralov, Yəhya Kərimov, Əziz Əfəndizadə, Fərahim Sadıqov və başqaları ilə təmasda olmuşlar. Bütün bunların hamısı bəstəkar, alim, pedaqoq O.Rəcəbovun təşəbbüsü ilə təşkil edilmiş və respublikamızda uşaqların estetik - bədii tərbiyəsi ilə bağlı bir sıra problemlərin həlli üçün çox mühüm şərait yaratmışdır.

O. Rəcəbovun "Maarif" nəşriyyatında çap olunan "Bədii özfəaliyyət" kitabı uşaqların sinifdənxaric və məktəbdənkənar tədbirlərdə inkişafına, onların musiqi-estetik tərbiyəsinin formalaşmasına, bir növ, istiqamət verən gərəkli ədəbiyyatdır. Bu kitab O.Rəcəbovun 1985-ci ildə "İşıq" nəşriyyatında çapdan buraxılmış "Uşaqlar və mahnılar" kitabının məntiqi davamıdır. "Uşaqlar və mahnılar" kitabında O.Rəcəbov mahnıların ölçüsü, bölgüsü, təqti, dinamik xarakteri ilə yanaşı, onların tərbiyəvi mahiyyətini də aydınlaşdırmışdır. O.Rəcəbov bir pedaqoq kimi sübut etmişdir ki, mahnı ən böyük tərbiyə vasitəsidir.

O. Rəcəbov 1992-ci ildə Azərbaycan musiqi mədəniyyətinin tarixi problemi üzrə doktorluq dissertasiyası müdafiə edərək pedaqoji elmlər doktoru elmi adını almışdır. Professor elmi adına layiq görülən Oqtay Rəcəbov Qafqazın Kabalevskisi adlandırılır. Ötən əsrin 80-ci illərində Kabalevskinin təklifi və təşəbbüs ilə Oqtay Rəcəbov Azərbaycanda 40 minlik xor kollektivi yaratmışdır. Onun rəhbərliyi və drijorluğu ilə respublika stadionunda 4 səsli xorun oxuduğu mahnıların sorağı ölkəmizdən kənarda da əks-sədə doğurmuşdur. 40 minlik xorun çoxsəsli xorla ifa etdiyi mahnıların qeyri-adi təqdimatı haqqında keçmiş ittifaqın müttəfiq respublikalarının qəzet və jurnalları ilə yanaşı, Avropanın inkişaf etmiş ölkələrinin mətbuat orqanları da işıqlandırmışdır.

Burada dahi şairimiz İ.Nəsiminin:
Məndə sığar iki cahan,
Mən bu cahana sığmazam! misraları yada düşür. Əgər Nəsimi iki cahana sığdığını bəyan edirdisə, Oqtay Rəcəbov isə üç cahana sığdığını bildirir. Əslində, onun bu fikirlərinin məntiqi əsasları vardır. Çünki bəstəkar, alim, pedaqoq kimi tanınaraq bənzərsiz şöhrət qazanan Oqtay Rəcəbovun hər üç arenada böyük nüfuzu vardır.

O. Rəcəbov bir tanınmış bəstəkar kimi, Azərbaycan bəstəkarlıq məktəbinin önündə gedən musiqişünasdır. O, simfoniyaları, operaları, uverturaları, kantataları, fortepiano və simfonik orkestr, violençel və simfonik orkestr üçün, tar və simfonik orkestr, kamança və simfonik orkestr üçün yazdığı musiqi əsərləri ilə beynəlxalq aləmdə məşhurdur. Onun 400 məşhur yazısı, müxtəlif janrlı 22 filmə yazdığı musiqiləri (3-ü İran-İslam Respublikasınındır), Azərbaycanda və Türkiyədə çap olunmuş fortepiano üçün məcmuələri, ingilis, rus və Azərbaycan əlifbalarının hər bir hərfinə yazılmış 3 mahnılar məcmuəsinin (İngiltərənin "Vorld in Heed" adlı cəmiyyətinin sifarişi ilə), 3 musiqili komediyaların (onlardan ikisi tamaşaya qoyulub) skripka və fortepiano üçün sonatası ona şöhrət qazandırıb.



Məhz bu baxımdan bir sıra xarici ölkələrdə tanınmış alim Oqtay Rəcəbov musiqi pedaqogikası üzrə Cənubi Qafqazda ilk pedaqoji elmlər doktoru, professor, "Rusiya pedaqoji və sosioloji Elmlər Akademiyasının birbaşa seçilmiş həqiqi üzvi kimi respublikamız üçün müasir musiqi təlimi sisteminin, 18 "musiqi dərsliklərinin və 19 müəllim üçün metodik vəsaitlərin, musiqi elminə və musiqi tədrisi metodikasına həsr olunmuş 15 monoqrafiyanın müəllifidir.

**Həm pedaqoq, həm Əməkdar müəllim, həm də Azərbaycan və SSRİ-nin qabaqcıl maarif əlaçısı olan O.Rəcəbov keçən əsrin 70-ci illərində Azərbaycan Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitutunda "Musiqi təlimi və təsviri incəsənət" kafedrasında şöbə müdirliyi ilə bərabər, Bakının 12 saylı məktəbində 9 il müəllim kimi eksperimentlər aparmış və onun ardıcılları olan 50 müəllim də respublikanın 50 məktəbində bu eksperimentləri təkrar etmişlər. Məhz bu dərsləri görən dahi rus bəstəkarı, akademik D.B.Kabaleski belə qərara gəlir ki, 1982-ci ildə II Ümumittifaq Estetik Tərbiyəsinə həsr olunmuş konfransı məhz Bakıda keçirtsin. Bu işlərinə görə o, 1982-ci ildə Azərbaycan Komsomolu mükafatına layiq görülür. Qeyd etmək lazımdır ki, onun estetik tərbiyəyə həsr olunmuş 100-dən çox məqalələri həm respublikamızda, həm də respublikamızdan kənarlarda nəşr olunmuşdur. İctimai xadim kimi O. Rəcəbov Azərbaycan Dövlət Televiziya və Radio şirkətində 1978-1992-ci illərdə, yəni 14 il ərzində ayda 2 dəfə olaraq xalqımıza təqdim olunan "Məktəblilərin musiqi klubu" adlı televiziya verilişinin həm yaradıcısı, həm də aparıcısı olmuşdur.**

Oqtay Rəcəbovun təklifi və təşəbbüsü ilə 1989-cu ildə Musiqi İnternat Məktəbi Respublika İncəsənət Gimnaziyasına çevrilmiş və burada direktor kimi işlədiyi müddətdə (1992-2001) 67 Beynəlxalq müsabiqələr laureatları olmuş, beynəlxalq sertifikatlar və diplomlarla təltif olunmuşdur. Yəni o, dünyada 3-cü hesab olunan yenitipli tədris ocağını xalqımıza, ölkəmizə hədiyyə etmişdir. Lakin bu tədris ocağının şöhrəti artdıqca müəyyən qüvvələr də boş dayanmadı. O. Rəcəbov məcbur oldu ki, direktor vəzifəsindən öz ərizəsi ilə azad olunsun. Qeyd etmək lazımdır ki, əslində, bu qüvvələr bəstəkara pislik etmək istəsələr də, bu O.Rəcəbov üçün yaxşılığa çevrildi. Çox tezliklə 2006-cı ildə o, Rusiya Pedaqoji və Sosioloji Elmlər Akademiyasına bir başa akademik seçilir, 2011-ci ildə hörmətli Prezidentimiz ona "Prezidentin fərdi təqaüdü" verir. 2011-2016-cı illərdə bəstəkarın yubileyləri M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında təntənəli surətdə keçirilir, 2018-ci ildə hörmətli İlham Əliyev Cənabları ona 3 otaqlı mənzil bağışlayır, həm də "Tərəqqi" medalına, 2019-cu ildə isə "Əməkdar incəsənət xadimi" fəxri adına layiq görülür.

**Oqtay Rəcəbov həm də novator bir bəstəkardır. Məhz o, xor və simfonik orkestr üçün "Zabul-Segah" muğamı əsərini yazmaqla yeni vokal simfonik janrının yaranmasına səbəb olmuşdur. Digər tərəfdən 1992-ci ildə onun "Göyçək Fatimə" adlı 50 dəqiqəlik cizgi-filmi operası C.Cabbarlı adına Dövlət Kinostudiyasında çəkilməklə respublikamızda ilk çizgi-opera filmi janrı yarandı. Bu operanın simfonik müşayiəti Sankt-Peterburq kinematoqrafiyasının simfonik orkestri tərəfindən, vokal-xor musiqi nümunələri isə M.F.Axundov adına Dövlət Akademik Opera və Balet Teatrının solistləri və xor kollektivi tərəfindən diskə köçürüldü. Bu çizgi-operanın maliyyələşdirilməsi Respublika Təhsil Nazirliyi tərəfindən həyata keçirilmişdi (1992). Bu çizgi-filmi yarandığı gündən bu günədək Bakı, Tehran, Təbriz, Ankara, İstanbul telekanallarında vaxtaşırı nümayiş etdirilir.**

*(Ardı var)*

**Fərahim SADIQOV,**
**Bakı Elm-Təhsil Mərkəzinin prezidenti, pedaqogika elmləri doktoru, professor, Beynəlxalq Türk Akademiyasının həqiqi üzvü, akademik Yusif Məmmədəliyev və akademik Mehdi Mehdizadə mükafatları laureatı**